Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Müstəqilliyin 30 ilində Azərbaycançılıq ideologiyası özünü birləşdirici faktor kimi necə doğrultdu...

## Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqiliyimizin bərpasının 30-cu ili - azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdir

**Milli birliyə nail olmaq hər xalqa qismət olmur. Heç şübhəsiz, milləti, xalqı, toplumu özündə birləşdirmək üçün milli ideologiya olmalıdır. Azərbaycan xalqı uzun illərdir ki, azərbaycançılıq ideologiyası ətrafında birləşməyə nail olub. Dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq, azərbaycanlılar birləşməyi bacarıblar.**

Azərbaycan 30 ildir ki, dövlət müstəqilliyini bərpa edib. Bu 30 ildə azərbaycançılıq ideologiyası birləşdirici amil kimi özünü tam olaraq doğrulda bilibmi? Tarixçilər və politoloqlar hesab edir ki, azərbaycançılıq ideologiyasının inkişafında və daha geniş səviyyədə yayılmasında bu istiqaməti təbliğ edənlərin rolu çox böyük olub. Mütəxəssislər qeyd edirlər ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dünyanın hər yerində yaşayan azərbaycanlılar Azərbaycana gəlməyə başladılar və bu da onların vətən sevgisinin necə dərin olduğunu göstərdi.

Tarixçilərin bir çoxunun sözlərinə görə, azərbaycançılığın birləşdirici faktor kimi təbliğinin aparılması çox aktualdır. Bu istiqamətdə mütamadi olaraq təbliğatlar aparılmalıdır. Eyni zamanda da azərbaycançılığın mahiyyətini ehtiva edən kitablar, elmi monoqrafiyalar yazılıb çap edilməlidir. Ekspertlərin sözlərinə görə, bu istiqamətdə kitablar nəşr olunub, amma onların sayı kifayət deyil. Tarixçi mütəxəssislər hesab edir ki, azərbaycançılıq birləşdirici faktor kimi özünü doğuruldub. Onların bildirdiyinə görə, amma bununla belə müstəqil Azərbaycanın dövlətçilik tarixi, xüsusən də müasir tariximiz azərbaycançılıq metodologiyası ilə yenidən yazılmalıdır ki, azərbaycançılığın, bu məfkurənin mahiyyətini gələcək nəsillər də anlasın.

### "Dövlət müstəqilliyimizi bərpa etdikdən sonra bizdə azərbaycançılıq ideologiyası inkişaf etməyə başladı..."

AVCİYA-nın vitse-prezidenti, tarix elmləri doktoru, professor, siyasi şərhçi Məhərrəm Zülfüqarlı bizimlə söhbətində bildirdi ki, Azərbaycan 1991-ci il 18 oktyabr tarixində bərpa edib, bu il dövlət müstəqilliyimizin bərpasının 30 ili tamam olur: "Bilirsiz ki, Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpası uğurunda mübarizəyə 1988-ci ildə Milli Azadlıq Hərəkatı ilə başladı. O zaman türkçülük, yəni etnik millətçilik ideologiyası inkişaf etmişdi və türkçülük Azərbaycan xalqının Sovet imperiyasına qarşı mübarizəsində birləşdirici rol oynadı. Lakin dövlət müstəqilliyimizi bərpa etdikdən bizdə azərbaycançılıq ideologiyası inkişaf etməyə başladı. Bilirsiz ki, Ermənistanı çıxmaq şərti ilə dünyada monoetnik, monomilli dövlət yoxdur. Azərbaycan da tarixən çoxmillətli, çox konfensiyalı ölkə olub. XIX əsrdə Azərbaycanda sənayenin, xüsusən də neft sənayesinin inkişaf etməsi nəticəsində ölkəmizdə çoxmillətli bir mühit formalaşıb. Yəni əhalimizin 90 faizi türk etnik kökənli olsa da, 10 faizi milli azlıqlardan ibarət idi. Ona görə, dövlət quruculuğunda etnik millətçilikdən dövlət millətçiliyinə keçmək tələb olunurdu. Bu da 1995-ci il konstitutsiyası qəbul olunarkən ümummilli lider Heydər Əliyev tərəfindən gerçəkləşdirildi".

### "Azərbaycançılıq ideologiyası Azərbaycan vətəndaşlarını birləşdirən çox güclü bir ideologiya oldu"

M.Zülfüqarlının sözlərinə görə, Azərbaycan dövləti rəsmi olaraq 1995-ci ildə etnik millətçilikdən dövlət millətçiliyinə, türkçülükdən azərbaycançılığa keçdik. "Azərbaycançılıq ideologiyası Azərbaycan vətəndaşlarını birləşdirən çox güclü bir ideologiya oldu. İndi də bu ideologiya öz müsbət tərəflərini ifadə edir. Yəni Azərbaycan ordusu, Azərbaycan əsgəri kimi məfhum bizi birləşdirir. "Azərbaycan əsgəri, irəli" deyəndə etnik mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları bu şüar altında torpaqlarımızı işğaldan azad etmək uğurunda mübarizəyə başladı və azərbaycançılıq bizi birləşdirdi. Azərbaycançılıq ideologiyası 44 günlük müharibədə də güclü birliyini üzə çıxardı. Ali Baş Komandanımız Hərbi Qənimətlər Parkının açılışında hərbiçilərimizlə görüşdə geniş məzmunlu nitq söylədi, orada Vətən müharibəsi qəhrəmanlarını da təqdim etdi. Biz gördük ki, Azərbaycanda yaşayan bütün milətlərin nümayəndələri 44 günlük Vətən müharibəsində öz qəhrəmanlıqlarını göstəriblər. Onların hamısı Ali Baş Komandan tərəfindən mükafatlandırıldılar, təltif edildilər. Bu da Azərbaycançılıq ideologiyasının birləşdirici faktor kimi özünü doğrulduğunun göstərici idi".



### "1995-ci ildə qəbul olunmuş konstitutsiya ilə azərbaycançılıq ideologiyasının canlandırılması Azərbaycan dövlətçiliyinin daha da güclənməsində..."

M.Zülfüqarlının sözlərinə görə, biz Azərbaycan xalqı olaraq Azərbaycançılıq məfhumuna sadiq olmaqla dövlətimizin daha yüksək səviyyədə inkişafına nail olacağıq. "Azərbaycançılıq bizim bayrağımızda da, gerbimizdə də öz əksini tapıb. Dövlət himnimiz səslənərkən bütün Azərbaycan vətəndaşları bununla qürur duyur. Bu ideologiyanı inkişaf etdirmək üçün Azərbaycan daha da güclü olmalıdır, iqtisadi cəhətdən digər ölkələrdən daha da öndə getməlidir. Belə hiss edirəm ki, yaxın gələcəkdə Azərbaycanda yaşayan milli azlıqların nümayəndələrinə bu cür bir vətəndə yaşadıqlarına görə onların başqa ölkələrdə yaşayan qohumları qibtə edəcək. Bu da konkret o deməkdir ki, Azərbaycanda yaşayan rusa Rusiyada yaşayan ruslar, Gürcüstanda yaşayan ruslar və digər yaxın ölkələrdə yaşayan ruslar qibtə edəcəklər. Azərbaycançılıq ideologiyası həm də ölkəmizdə yaşayan milli azlıqlar üzərində böyük öhtəlik qoyur və onlar bu vətəndə yaşayarkən dövlət dilini yaxşı öyrənməlidirlər. Dövlət dilində sərbəst danışmaqla, dövlətin himnini bilməklə, əzbərdən oxumaqla onlar azərbaycançılıq ideologiyasına xidmət etmiş olurlar. Müsbət haldır ki, belələrinin sayı günü -gündən artır və biz bunu idman sahəsində də görürük. Etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan idmançısı yüksək nəticə göstərirsə, Azərbaycan bayrağı qaldırılarkən o Azərbaycan himnini oxuyursa bu da həmin ideologiyanın inkişafına, milli birliyə böyük təkandır. Bir tarixçi kimi belə hesab edirəm ki, 1995-ci ildə qoyulmuş xətt düzgün xəttdi. 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra 1995-ci ildə qəbul olunmuş konstitutsiya ilə azərbaycançılıq ideologiyasının canlandırılması Azərbaycan dövlətçiliyinin daha da güclənməsində, Azərbaycanın ərazi bütövlüyünün bərpasında və bundan sonra da Azərbaycanın güclü dövlət kimi güclü inkişafında böyük rol oynayır və oynayacaq da"- deyə M.Zülfüqarlı qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**